# ODLAR YURDU UNİVERSİTETİ

## PEDAQOJi TƏCRÜBƏSİ PROQRAMI

Bakalavr səviyyəsi

**Kafedra** – Psixologiya,pedaqogika və sosial fənlər

**İxtisasın şifri və adı**:   050118- TSPX



**BAKI-2023**

# ODLAR YURDU UNİVERSİTETİ

## PEDAQOJi TƏCRÜBƏSİ PROQRAMI

Bakalavr səviyyəsi

**Kafedra** – Psixologiya,pedaqogika və sosial fənlər

**İxtisasın şifri və adı**: 050118- TSPX

Proqram Odlar Yurdu Universitetinin ″Psixologiya, pedaqogika və sosial fənlər″ kafedrasının **27.12.2022-ci il tarixli (Protokol № 6)** iclasında müzakirə edilmiş və universitetin Elmi Şurasının **26/01/2023-ci il** tarixli qərarı ilə təsdiq edilmişdir.

**BAKI-2023**

**Tərtib edən :** Odlar Yurdu Universitetinin "Psixologiya pedaqogika və sosial fənlər" kafedrasının müdiri, professor, psixologiya elmlər doktoru **Rəşid Vəkil oğlu Cabbarov**

**Rəyçi(lər):** Azərbaycan Dövlət Pedaqoji Universitetinin"Ümumi psixologiya" kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor, **Ramiz İbrahim oğlu Əliyev**

Odlar Yurdu Universitetinin "Psixologiya pedaqogika və sosial fənlər" kafedrasının dosenti psixologiya elmləri namizədi **Müşviq Hüseyn oğlu Mustafayev**

Təcrübə proqramı OYU-nun "Karyera və təcrübə" mərkəzi ilə razılaşdırılıb.
"Karyera və təcrübə" mərkəzinin həmsədri:
____________________ dos. F.İ.İbadov
"Karyera və təcrübə" mərkəzinin həmsədri:

_____________________ Kristina Eldar qızı Məmmədov

**BAKI-2023**

**Mündəricat**

1. Ümumi müddəalar...................…………….................5
2. Pedaqoji təcrübənin məqsədi və vəzifələri ..................6
3. Pedaqoji təcrübənin təşkili..........................................7
4. Tələbələrin pedaqoji təcrübənin təşkili və keçirilməsinə dair qaydalar.............................................8
5.Pedaqoji təcrübədə iştirak edənlərin vəzifələri.............8
6. Pedaqoji təcrübədə iştirak edən tələbələrin fəaliyyətinin qiymətləndirilməsi....................................14
7. Pedaqoji təcrübədə saatların bölgüsü.........................20
8. Pedaqoji təcrübədə tələbələrin fəaliyyətinin qiymətləndirilməsi......................................................21
9. Pedaqoji təcrübə zamanı şagir şəxsiyyətinin psixoloji xararkeristiksaının aparılması qaydaları.......................22
Ədəbiyyat..................................................................26

## 1. Ümumui müddəalar

“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Staretegiyasında”, “Təhsil qanununda”, eləcə də təhsillə bağlı digər dövlət sənədlərində “ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsi” təhsilin qarşısında duran başlıca vəzifələrdən biri kimi göstərilir. “Təhsil insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqlı yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir”.

Təhsilin İnkişafı haqqında Dövlət Strategiyasında yüksək tələblərə cavab verə bilən təhsil sisteminin yaradılması üçün göstərilən beş strateji istiqamətindən birincisi səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil, ikincisi insan resuslarının müasirləşdirilməsidir.

Göstərilən vəzifələrin həyata keçirilməsində, eləcə də təhsilalanların səriştəli kadr kimi yetişməsində tələbələrin pedaqoji təcrübəsi xüsusi yer tutur. Yəni pedaqoji təcrübə müvafiq təhsil proqramının tərkib hissəsi olmaqla praktik psixoloq hazırlayan ali təhsil müəsissələrinin təlim formalarından biridir. Pedaqoji təcrübə prosesində praktik psixoloq olmağa hazırlanan tələbə bir tərəfdən gələcək təhsil işçısı kimi özünün pedaqoji-psixoloji bilik və bacarıqlarını sınaqdan keçirir, digər tərəfdən bu sahədə qabliyyətlərini inkişaf etdirir, psixoloji xidmət işçısı kimi formalaşır.

Təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə təhsil alan tələbələrin pedaqoji təcrübələri IV tədris ili – VIII semestrdə 14 həftə müddətində keçirilir. Tələbələrin pedaqoji təcrübəsinin ilk 7 həftəsi ümumtəhsil məktəblərində, digər 7 həftəsi müvafiq “Psixoloji Mər-kəz”lərdə aparılır.

Təhsilə psixoloji xidmət işi təhsil sisteminin mühüm həlqələrindən biri olduğundan və təhsilə sosial-psixoloji xidmət ixtisasının tələbələri bu sahədə fəaliyyət göstərmək üçün hazırlandıqlarından onlar ilk növbədə təhsil işçisi üçün vacib olan səriştələrə yiyələnməlidirlər.

İkincisi, məktəb psixoloqu eyni zamanda peşəkar psixoloq olduğundan psixokorreksiya, psixodiaqnostika, psixoloji maarifləndirmə, psixoprofilaktika işlərini bilməlidirlər ki, bunun üçün də daha səmərəli yollardan biri də "Mərkəzlərdə" təcrübə keçməkdir.

## 2. Pedaqoji təcrübənin məqsədi və vəzifələri

Pedaqoji təcrübə təhsil sisteminin mühüm həlqələrindən biri olmaqla tələblərin qazandıqları elmi – nəzəri bilikləri sınaqdan keçirmək, onları bacarıqlara çevirmək, gələcək həyat yolunu düzgün müəyyənləşdirmək, peşə qabliyyətini yüksəltmək, müasir texnologiyaları mənimsəmək, təlim-tərbiyə prosesində yaxından iştirak etmək məqsədilə keçirilir. Pedaqoji təcrübə aşağıdakı vəzifələri yerinə yetirir:

- tələbələrin ali təhsil müəssisəsində aldığı nəzəri bilikləri möhkəmləndirmək və sonrakı fəaliyyət sahəsində ondan istifadəni təmin etmək;
- tələbələri təhsil aldığı ixtisasın istiqamətlərindən, xüsusiyyətlərindən asılı olaraq yeni texnologiyalarla, iş üsulları ilə, təhsilin müasir tələbləri ilə tanış etmək, qazandıqları bilikləri bacarıqlara çevirmək imkanı yaratmaq;
- tələbələrdə kommunikativ, təşkilatçılıq, konstruktiv və refleksiv qabiliyyətlər formalaşdırmaq;
- pedaqoji kollektivin demokratik üsularla idarə olunmasında məktəb rəhbərləri, müəllimlərlə birgə iştirak

etməyi, baş verə biləcək münaqişələrin səbəblərini və aradan qaldırılması yollarını müəyyənləşdirmək və həlli yollarını öyrənmək;

- risk qrupuna aid edilən aqressiv və deviant davranışlı şagirdləri müəyyənləşdirmək, onların fərdi-psixoloji xüsusiyyətlərini, şəxsiyyətlərarası münasibətlər sistemində yerini təhlil edib, müəllim və valideyinləri maarifləndirmək qaydalarını öyrənmək;
- məktəb psixoloqunun fəaliyyəti ilə yaxından tanış olmaq;
- təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə təhsil alan tələblərin gələcək praktik psixoloq kimi fəaliyyət göstərmələri üçün maraq, meyl, qabliyyət və bacarıqlarını möhkəmləndirmək.

## 3. Pedaqoji təcrübənin təşkili

Pedaqoji təcrübənin təşkilində aşağıdakı cəhətlərin nəzərə alınması vacibdir:

- təcrübə ümumtəhsil məktəbləri və psixoloji xidmət mərkəzləri ilə ali təhsil müəssisəsi arasında bağlanmış ikitərəfli müqavilə əsasında hayata keçirilir;
- təcrübə bazasının profilini nəzərə almaqla, ixtisası uyğun gələn və kifayət qədər iş təcrübəsi olan professor – müəllim  heyəti sırasından təcrübə rəhbəri təyin edilir;
- təcrübə müəyyən olunmuş müddətdə və müvafiq məktəb və xidmət mərkəzində təsdiq olunmuş proqram əsasında keçirilir;
- təcrübənin keşirilməsinə nəzarət ali məktəbin müvafiq qurumları tərəfindən həyata keçirilir;
- təcrübənin keçirildiyini müəssisə (orta məktəb və xidmət mərkəzi) onun tələb olunan səviyyədə yerinə yetirilməsi üçün şərait yaradır;

- təcrübəçi tələbələrə məktəb psixoloqunun fəaliyyət sahəsi ilə yaxından tanış olmaq, onunla birlikdə işləmək, şagirdlərlə, qrupla, sinif kollektivi ilə işləmək üçün şərait yaradılır;

- tələbələr orta məktəbin, eləcə də psixoloji xidmət mərkəzinin daxili nizam-intizam qaydaları ilə tanış olur və təcrübə müddətində onlara əməl edirlər;

- pedaqoji təcrübə rəhbərinin və digər iştirakçıların tədris yükü normativ sənədlərə əsasən müəyyənləşdirilir;

- tələbənin təcrübə keçməsi ilə bağlı hesabatı yazılı və şıfahi formada müvafiq kafedralarda həyata keçirilir;

- müxtəlif səbəblərdən pedaqoji təcrübədə iştirak edə bilməyən və ya qeyri – müvəffəq qiymət alan tələbə təkrar pedaqoji təcrübə keçir.

## 4. Tələbələrin pedaqoji təcrübənin təşkili və keçirilməsinə dair qaydalar

- pedaqoji təcrübə universitet rəhbərliyinin müvafiq əmrinə əsasən müqavilə əsasında orta məktəblərdə və psixoloji xidmət mərkəzlərində həyata keçirilir;

- təhsildə sosial-psixoloji xidmət ixtisası üzrə bakalavr pilləsində təhsil alan IV tədris ili tələbələrin pedaqoji təcrübəsi ilk 7 həftə müddətində müvafiq ümumtəhsil məktəblərinin I-XI siniflərində;

- növbəti 7 həftə müvafiq psixoloji xidmət mərkəzlərində həyata keçirilir.

## 5. Pedaqoji təcrübədə iştirak edənlərin vəzifələri

**Universitet üzrə pedaqoji təcrübə rəhbəri:**

- universitet, ümumtəhsil məktəbi və mərkəzin rəhbərlərinin razılıqı əsasında təcrübənin keçiriləcəyi müəssisəni müəyyənləşdirir;

- başlanğıc və yekun konfranslarının keşirilməsini təmin edir;

- pedaqoji təcrübəyə, davamiyyətə nəzarət edir;

- qarşıya çıxan çətinliklərin, problemlərin həllində iştirak edir;

- pedaqoji təcrübə ilə bağlı nəticələri ümumiləşdirir, səmərəliliyin artırılması məqsədilə təkliflər hazırlayır;

- pedaqoji təcrübənin gedişi, meydana çıxan problemlər barədə fakültə elmi şurasında məlumat verir.

**Fakültə üzrə pedaqoji təcrübə rəhbəri:**

- pedaqoji təcrübənin düzgün təşkili, həyata keçirilməsi işinə köməklik və nəzarət edir;

- təcrübəçi tələbələrin fəaliyyətinə, davamiyyətinə nəzarət edir və müzakirələrin təşkili, keçirilməsində iştirak edir;

- ixtisas üzrə metodistin, pedaqoq və psixoloqun işinə, tələbələrin fəaliyyətinin qiymətləndirilməsinə nəzarət edir;

- pedaqoji təcrübənin yekununa dair hesabat hazırlayıb fakültə elmi şurasında müzakirə edir;

- pedaqoji təcrübənin yekunu barədə ümumiləşdirmə aparır, təcrübənin daha səmərəli keçirilməsinə dair təkliflər hazırlayıb rəhbərliyə təqdim edir.

**İxtisas üzrə metodist:**

- pedaqoji təcrübəyə həsr olunmuş konfransda iştirak edir;

- ona təhkim olunmuş tələbələrin pedaqoji təcrübəsinin keçirilməsinə rəhbərlik edir, onların orta məktəbdə və psixoloji xidmət mərkəzində görəcəkləri işləri planlaşdırır, həyata keçirilməsində köməklik göstərir;

- tələbələrin gündəlik və həftə ərzində görəcəkləri işləri planlaşdırır, müzakirəsini keçirir;

- sinifdənxaric tədbirlərin təşkili və keçirilməsində köməklik edir;

- dərsin keçirilməsinin psixoloji təhlilinin keçirilməsini təmin edir;

- təcrübəçi tələbənin fəaliyyətini qiymətləndirir;

- bir şagirdin, sinfin müşahidəsinin aparılmasının, xarakteristika və gündəliyin hazırlanmasında, müzakirəsində iştirak edir;

- pedaqoji təcrübəyə dair jurnalın düzgün yazılmasına, qiymətlərin vaxtı-vaxtında verilməsinə nəzarət edir;

- pedaqoji təcrübənin yekunlaşdırılmasında tələbələrə lazımi köməklik edir, təcrübənin yekununa dair müzakirə keçirir, təhvil veriləcək sənədləri hazırlayır.

**Pedaqoq:**

- pedaoji təcrübənin başlanğıc və yekun konfranslarında iştirak edir;

- məktəb və məktəb rəhbərləri ilə tələbələri tanış edir;

- təcrübəçi tələbləri sinif rəhbərlərinin köməkçi kimi siniflərə təhkim edir;

- metodistlə birlikdə tələbələrin təcrübə müddətində göstərəcəkləri təlim – tərbiyə işlərinin planını tərtib edir;

-hər bir tələbənin fərdi iş planının tərtibinə nail olur;

- pedaqoji təcrübə müddətində görülmüş işlərin gündəliyinin tərtibinə və aparılmasına nəzarət edir;

- dərslərdə iştirak edir və onların pedaqoji təhlilini aparır;

- tələbələrlə müasir təlim – tərbiyə metodlarına dair seminarlar təşkil edir;

- təcrübəçilərin aparacaqları dərsdənkənar tədbirlərin planlaşdırılmasında və aparılmasında tələbələrə kömək edir;

- şagirdlərlə aparılacaq tərbiyəvi söhbətlərin keşirilməsinə nəzarət edir;

-tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsində iştirak edir.

**Məktəb psixoloqu:**

- tələbələri məktəb psixoloqunun kabineti ilə tanış edir, kabinetin tərtibi qaydalarını başa salır;

- praktik psixoloqun andı ilə tanış edir;

- məktəb psixoloqunun fəaliyyətinin xüsusiyyətlərini şərh edir;

- uşağın məktəbə psixoloji hazırlığı, I sinfə qəbul zamanı psixoloqun vəzifələrini şərh edir;

- məktəb psixoloqunun fəaliyyətini tənzimləyən sənədlərlə tanış edir;

- testləşdirmə və ondan istifadə qaydalarını izah edir;

- valideynlərlə, müəllimlərlə, şagirdlərlə işləməyin xüsusiyyətlərini şərh edir;

- dərsin psixoloji təhlili qaydalarını müzakirə edir;

- psixoloji kabinetin qısamüddətli və perspektiv iş planı, psixoloji xəritənin hazırlanması və s. sənədlərin hazırlanması qaydalarını öyrədir;

- psixoloji maarifləndirmə, psixoprofilaktika, psixodiaqnostika, psixokorreksiya və psixokonsultasiya işlərinin aparılması qaydalarını başa salır;

- istedadlı şagirdlərin müəyyənləşdirilməsi, onlara iş qaydalarını öyrədir;

- risk qrupuna aid olan, aqressiv, deviant davranışı, konfliktli şagirdlərlə iş qaydalarını izah edir;

- müəllim-valideyn, müəllim-müəllim, müəllim-şagird, valideyn-övlad münasibətlərinin öyrənilməsi və xüsusiyyətləri barədə tələbələri məlumatlandırır;

- tələbələrin təcrübə zamanı fəaliyyətini qiymətləndirir;

- təcrübəyə rəhbərlik edən metodistlə birgə çalışır;

**Psixoloji xidmət mərkəzinin işçiləri:**

- tələbələri mərkəzin fəaliyyəti ilə tanış edir, onlar üçün lazımi şərait yaradır;

- kliyentlə (uşaqla) iş qaydalarını şərh edir;

- uşağın valideynləri ilə söhbət, müsahibə və s. keçirmək qaydalarını şərh edir;

- uşağın problemi, psixodiaqnoz qoymağın qaydalarını izah edir;

- mərkəzə müraciət edən uşaqların tələbələr tərəfindən psixokorreksiya işinə cəlb olunmasını təmin edir;

- tələbənin nəzəri bilikləri ilə praktik bacarığının üzvü sintezinə şərait yaradır;

- təcrübə müddətində tələbənin praktik biliyinin bacarığa çevrilməsini təmin edir;

- kliyentlə işləməyin metodlarını öyrədir;

- problemli uşağın məktəb təliminə, kollektivə adaptasiyasına, sosiallaşmasına yardım edir;

- valideyn-uşaq münasibətləri, uşağın psixoloji xüsusiyyətləri barədə tələbələrlə birlikdə tədbirlər keçirir.

**Məktəb direktoru və onun müavini:**

- pedaqoji təcrübənin aparılması üçün lazımi şərait yaradır, məktəblə, təlim-tərbiyə işlərin xüsusiyyətləri, məktəb sənədləri, pedaqoji şura, metodbirləşmə, valideyn komitəsinin işi ilə tanış edir;

- tələbələri siniflərə təhkim edir, məktəb psixoloqu ilə əlbir fəaliyyətini təşkil edir;

- ixtisas metodisti ilə birlikdə tələbələrin fəaliyyətini müzakirə edir;

- pedaqoji təcrübənin sonunda tələbələrin işini, ümumilikdə təcrübəni bütövlükdə müzakirə edir, tələbələrin apardığı işə qiymət verir;

- təcrübə jurnalında öz fəaliyyətini əks etdirir.

**Təcrübəçi tələbə:**

- tələbə verilmiş əmr əsasında pedaqoji təcrübə keçəcəyi məktəb və psixoloji xidmət mərkəzini müəyyənləşdirir;

- təcrübəyə həsr olunmuş başlanğıc və yekun konfranslarında iştirak edir;

- təcrübə müddətində təlimata əsasən ona tapşırılan bütün işləri yerinə yetirir;

- təhkim olunduğu məktəbin və mərkəzin daxili nizam-intizam qaydalarına əməl edir;

- təcrübə rəhbərlərinin tapşırıq və göstərişlərini yerinə yetirir;

- qaydalara əməl etməyən tələbə təcrübədən kənarlaşdırılır;

- pedaqoji təcrübədən qeyri-müvəffəq qiymət alan tələbə təkrar pedaqoji təcrübəyə göndərilir;

- məktəbin və mərkəzin imkan və şəraitinə uyğun olaraq tələbə I və ya II növbə işləyə bilər. I növbədə işləyənlər üçün iş müddəti $8^{00}$-dan $14^{00}$-dək, II növbədə olanlar üçün iş vaxtı saat $12^{00}$-dan $18^{00}$-dək müəyyənləşdirilir;

- pedaqoji təcrübə müddətində seçilmiş qrup nümayəndəsi tələbələrin dərsə davamiyyətinə, tapşırıqların yerinə yetirilməsinə və pedaqoji təcrübə jurnalının doldurulmasına nəzarət edir;

- tələbə həftənin I-V günləri, hər gün 6 saat müddətində məktəbdə və ya mərkəzdə olmalı, gördüyü işləri təcrübəyə gündəlikdə qeyd etməlidir;

- tələbə ondan tələb olunan sənədləri vaxtında hazırlamalı və təcrübənin sonunda təhvil verməlidir;

- tələbə təcrübəyə həsr olunmuş yekun konfransında çıxış edib, öz təəssüratlarını bölüşə bilər.

## 6. Pedaqoji təcrübədə iştirak edən tələbələrin fəaliyyətinin qiymətləndirilməsi

Pedaqoji təcrübədə iştirak edən tələbələrin fəaliyyətinin qiymətləndirilməsi aşğıdakı şəkildə həyata keçirilir:

- pedaqoji təcrübədə iştirak edən tələbə bütün rəhbər metodistlərin iştirakı və razılığı ilə qiymətləndirilir;
- hər bir tələbənin qiyməti pedaqoji təcrübə müddətində görülmüş işlərin və müvafiq sənədlərin lazımi səviyyədə yerinə yetirilməsi əsasında verilir;
- tələbənin fəaliyyəti 100 ballıq sistemlə qiymətləndirilir;
- pedaqoji təcrübədə iştirak edən tələbəyə davamiyyətə görə 10 bal verilir;
- ixtisas üzrə metodist 50 (məktəb 30 bal, mərkəz 20 bal), pedaqoq 20 bal, məktəb psixoloqu 10 bal, mərkəzin psixoloqu 10 bal, (10+50+20+10+10);
- təcrübəçi tələbələr məktəbdə 6 sınaq dərsi (3 icmal, 3 plan), mərkəzdə 4 sınaq dərsi (2 icmal, 2 plan) aparır;
- icmal dərslərinin hər biri 0-10 balla qiymətləndirilir;
- tələbə pedaqoji təcrübənin 25%-dən çoxunda iştirak etmədikdə təcrübəni təkrar keçməlidir;
- orta qiymət 2.5 dən aşağı olduğunda tələbəyə bal hesablanmır.

**Pedaqoji təcrübədə görüləcək işlərin təxmini planı**

| № | | Görüləcək işlərin məzmunu | icraçılar |
|---|---|---|---|
| 1 | I həftə | - Pedaqoji təcrübənin başlanmasına həsr olunmuş konfransda iştirak etmək;<br>- ixtisas üzrə metodist və pedaqoqla tanışlıq;<br>- pedaqoji təcrübənin keçirildiyi məktəblə tanışlıq;<br>- məktəb direktoru və onun müavini ilə tanışlıq, onlarla söhbət;<br>- fəaliyyət planının hazırlanması;<br>- məktəb psixoloqu, onun kabineti və sənədlərlə tanışlıq;<br>- siniflərə təhkim olunmaq;<br>- dərslərdə iştirak etmək;<br>- hazırlanacaq sənədlər barədə metodist və pedaqoqun tapşırıqları və müzakirəsi;<br>- məktəb psixoloqu ilə görüləcək işlərin planlaşdırılması. | -təcrübəçi tələbə<br>- metodist<br>- pedaqoq<br>-məktəb psixoloqu<br>-direktorun müavini |
| 2 | II həftə | - həftə ərzində görüləcək işlərin planlaşdırılması;<br>- icmalların və gündəliyin tərtibi;<br>- psixoloji xarakteristikanın hazırlanmasının müzakirəsi;<br>- dinləniləcək dərslərin | - tələbə<br>- metodist<br>-pedaqoq<br>-məktəb psixoloqu |

| | | | |
|---|---|---|---|
| | | müzakirəsi, psixoloji təhlili<br>- müşahidə olunacaq şagirdlərin müəyyən-ləşdirilməsi;<br>- sinifdə psixoloji mühitin təhlili;<br>- metodist, psixoloq və pedaqoqla birlikdə tələbənin həftəlik fəaliyyətinin təhlili. | |
| 3 | III həftə | - həftə ərzində görüləcək işlərin müzakirəsi və planlaşdırılması;<br>-müşahidə olunan şagirdin psixoloji xarakteristikasının hazırlanması;<br>- sinif rəhbəri ilə uşaq barədə söhbətlərin keçirilməsi;<br>- məktəb psixoloqu ilə birlikdə psixoloji treninqlərin aparılması;<br>- həftə ərzində görülən işlərin müzakirəsi. | - tələbə<br>-sinif rəhbəri<br>-metodist<br>-pedaqoq<br>-məktəb psixoloqu |
| 4 | IV həftə | - həftə ərzində görüləcək işlərin müzakirəsi və planlaşdırılması;<br>-sinif kollektivi ilə aparılacaq psixoloji-pedaqoji işlərin tərtibi;<br>- sinifdənxaric psixoloji tədbirlərin keçirilməsi;<br>- psixoloji mövzuda şagirdlərlə söhbət;<br>- həftə ərzində görülən | - tələbə<br>-sinif rəhbəri<br>-məktəb psixoloqu<br>- metodist<br>-pedaqoq |

| | | | |
|---|---|---|---|
| | | işlərin yekunlaşdırılması; | |
| 5 | V həftə | - həftə ərzində görüləcək işlərin müzakirəsi və planlaşdırılması<br>- məktəb psixoloqu və metodistlə müəy-yənləşdirilmiş mövzuda şagirdlərlə diskussiyanın keçirilməsi;<br>- risk qrupuna aid edilən şagirdlərin müəyyən-ləşdirilməsi və onlarla iş;<br>- istedadlı şagirdlərin müəyyənləşdirilməsi və onların öyrənilməsi;<br>- həftə ərzində görülən işlərin yekunlaşdırılması | - tələbə<br>-metodist<br>-pedaqoq<br>-məktəb psixoloqu |
| 6 | VI həftə | - sinif kollektivində qarşılıqlı münasibətlərin öyrənilməsi;<br>- müəllim-şagird ünsiyyətinin təhlili;<br>- sinfin xarakteristikasının hazırlanması;<br>-metodist, pedaqoq və məktəb psixoloqu ilə birlikdə şagirdlərin təlim fəaliyyəti və davranışının psixoloji təhlili;<br>- şagirdlərlə "Özüm və yoldaşlarım" mövzusunda yazı yazdırmaq və təhlil etmək;<br>- "Mən nəçi olmaq istəyirəm | - tələbə<br>-şagirdlər<br>-metodist<br>-pedaqoq<br>-məktəb psixoloqu |

| | | | |
|---|---|---|---|
| | | və niyə" mövzusunda diskussiya keçirmək;<br>- həftə ərzində görülən işlərin yekunlaşdırılması | |
| 7 | VII həftə | - həftə ərzində görüləcək işlərin müzakirəsi və planlaşdırılması;<br>-təcrübə sənədlərinin aparılmasına dair tələbələrin hesabatı;<br>- məktəb psixoloqunun fəaliyyətinin öyrənilməsinə dair müzakirə;<br>- məktəbdə pedaqoji təcrübənin yekunlaşdırılması. | - tələbə<br>-metodist<br>-məktəb psixoloqu<br>-pedaqoq |
| 8 | VIII həftə | - təcrübənin keçirildiyi mərkəzin işi ilə tanışlıq;<br>-mərkəz rəhbəri və işçilərlə görüş, söhbət;<br>- mərkəzin nizam-intizam və iş qaydaları ilə tanışlıq;<br>- mərkəzdə kliyentlərlə iş qaydaları ilə tanışlıq;<br>- mərkəzin iş qaydalarını öyrənmək;<br>- həftənin yekununa dair hesabat. | - tələbə<br>-mərkəz işçiləri<br>-metodist<br>-pedaqoq |
| 9 | IX həftə | - həftə ərzində görüləcək işlərin müzakirəsi və planlaşdırılması;<br>- kliyentlərlə tanışlıq və onların probleminin | - tələbə<br>-mərkəzin işçisi<br>-metodist |

| | | | |
|---|---|---|---|
| | | öyrənilməsi;<br>- kliyentlərlə söhbət, əylənmə və ünsiyyət;<br>- uşaqların ailə mühiti barədə valideynlərlə söhbət;<br>- həftənin yekunlaşdırılması. | |
| 10 | X həftə | - həftə ərzində görüləcək işlərin müzakirəsi və planlaşdırılması;<br>- psixodiaqnostika işi ilə tanışlıq;<br>- praktik psixologiya sahəsində yeniliklərin öyrənilməsi;<br>- həftənin yekunlaşdırılması. | - tələbə<br>- metodist<br>-mərkəzin işçisi<br>-pedaqoq |
| 11 | XI həftə | - həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi;<br>- təhkim olunduğu uşaqla korreksiya işinin aparılması;<br>- görülən həftəlik işlərin qeydiyyatı. | - tələbə<br>-metodist<br>-pedaqoq<br>-mərkəzin işçisi |
| 12 | XII həftə | - həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi;<br>- təhkim olunduğu uşağın inkiaşf dinamikasının izlənilməsi;<br>-həftənin yekunu. | - tələbə<br>-metodist<br>-mərkəzin işçisi |
| 13 | XIII həftə | - həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi;<br>- psixoprofilaktika və | - tələbə<br>- metodist<br>-mərkəzin işçisi |

| | | | |
|---|---|---|---|
| | | psixokonsultasiya işi;<br>-həftənin yekunu. | |
| 14 | XIV həftə | - həftə ərzində görüləcək işlərin planlaşdırılması və müzakirəsi;<br>- pedaqoji təcrübə müddətində görülən işlərin müzakirəsi;<br>- pedaqoji təcrübə sənədlərinin hazırlanması, müzakirəsi və təhvil verilməsi;<br>- yekun konfransında iştirak etmək | - tələbə<br>-metodist<br>-pedaqoq |

## 7. Pedaqoji təcrübədə saatların bölgüsü

**"Təhsildə sosial-psixoloji xidmət**" ixtisası üzrə təhsil alan tələbələrin pedaqoji təcrübənin ilk 7 həftəsi ümumtəhsil məktəblərində, digər 7 həftəsi **"Psixoloji Mərkəz"** lərdə aparılır.

"Təhsildə sosial-psixoloji xidmət"ixtisası üzrə pedaqoji təcrübədə metodistlərə ayrılan saatlar və aparılacaq dərslərin sayı aşağıdakı kimi müəyyən edilmişdir:

| ***N*** | **Əməkdaşlar** | ***Saatların miqdarı*** | ***Qeyd*** |
|---|---|---|---|
| Məktəb üzrə | | | |
| **1.** | *İxtisas üzrə metodist* | 15 | |
| **2.** | *Psixoloq* | 2 | |
| **3.** | *Pedaqoq* | 4 | |
| **4.** | *Məktəb direktoru* | 2 | |

| | | | |
|---|---|---|---|
| ***5.*** | *Məktəb psixoloqu* | 8 | |
| Psixoloji mərkəz üzrə: | | | |
| ***6.*** | *İxtisas üzrə metodist* | 15 | |
| ***7.*** | *Mərkəzin direktoru* | 2 | |
| ***8.*** | *Mərkəzin psixoloqu* | 7 | |
| ***9.*** | *Fakültə və ya kafedra üzrə pedaqoji təcrübənin rəhbəri* | **1** | |
| ***10*** | ***Cəmi*** | **56** | |

**Məşğələlərin sayı:**

| N | Məşğələnin adı | Məşğələlərin miqdarı | Məşğələnin növü |
|---|---|---|---|
| Məktəbdə | | | |
| | | 6 | 3 icmalla<br>3 planla |
| Psixoloji mərkəzdə | | | |
| | | 4 | 2 icmalla<br>2planla |
| | **Cəmi** | 10 | 5 icmalla<br>5 planla |

## 8. Pedaqoji təcrübədə tələbələrin fəaliyyətinin qiymətləndirilməsi

- Pedaqoji təcrübədə iştirak edən tələbənin fəaliyyəti psixoloq, pedaqoq, metodistlərin iştirakı və razılığı ilə qiymətləndirilir,əks təqdirdə tələbənin fəliyyəti qiymətləndirilməyəcək;

- hər bir tələbənin qiyməti pedaqoji təcrübə müddətində görülmüş işlərin və müvafiq sənədlərin lazımi səviyyədə yerinə yetirilməsi əsasında verilir;

- tələbənin fəaliyyəti 100 ballıq sistemlə qiymətləndirilir;

- pedaqoji təcrübədə iştirak edən tələbəyə davamiyyətə görə 10 bal verilir;

- ixtisas üzrə metodist 50 bal (məktəbdə 30 bal, mərkəzdə 20 bal), pedaqoq 20 bal, psixoloq 20 bal (10+50+20+20);

- təcrübəçi tələbələr məktəbdə 6 sinaq dərsi ,mərkəzdə 4 sınaq dərsi aparır;

- dərsin hər biri 0-10 balla qiymətləndirilir;

## 9. Pedaqoji təcrübə zamanı şagir şəxsiyyətinin psixoloji xorarkeristiksaının aparılması qaydaları

**Şagird haqqında ümumi məlumat.**

- Şagirdin soyadı, adı, atasının adı, yaşı, anadan olduğu və hal-hazırda yaşadığı yer, oxuduğu sinif və məktəbin nömrəsi, oxuduğu sinifdə və ya məktəbdə təhsil aldığı müddət, sinifdə ictimai öhdəliyi, sağlamlıq dərəcəsi və fiziki inkişafı.

- Şagirdin ailə şəraiti və ailə tərbiyəsi. Ailənin mədəni-məişət şəraiti, maddi təminatı, uşaqların sayı, cins tərkibi və onlar arasındakı yaş fərqi, şagirdin öz valideynlərinin, yaxud başqalarının himayəsində yaşaması, ailədə uşağa qayğı və onun tərbiyəsinə münasibət, ailənin tipii (tam, natamam, mürəkkəb) valideynlərinin təhsil səviyyəsi. Məktəblə ailə arasında əlaqənin səviyyəsi və s.

**Şagirdin daxil olduğu qrupun xarakteristikası.**

- Şagirdin daxil olduğu qruplar (sinif kollektivi, küçə qrupu, dərnəklər, başqa şagird kollektivi və s.) və onların əhəmiyyəti;

- Qrupda birlik, qarşılıqlı kömək və qarşılıqlı təsirin səviyyəsi, qrupda aparıcı rolunu oynayan lider varmı? Şagirdin daxil olduğu qruplardakı mövqeyi necədir (fəaldır və yaxud passiv)? Şagirdin kollektivdə nüfuzu varmı?

- Qrupda möhkəm ictimai rəy varmı?

- Şagirdin bütün qrupun və ayrı-ayrı qrup üzvlərinin müvəffəqiyyətinə və müvəffəqiyyətsizliyinə olan münasibəti. Kollektivin müvəffəqiyyətsizliyini öz şəxsi uğursuzluğu kimi qəbul edirmi?

- Şagirdin daxil olduğu qrupun fəaliyyət məqsədləri və motivləri daha geniş olan təşkilatın (məktəb və s.) motivləri və məqsədləri ilə uyğun gəlirmi?

- Qrupun başqa qruplarla ümumi məqsədləri varmı, onlarla əməkdaşlıq edirmi, yaxud onlardan ayrılır və ancaq qrupun tələbi ilə yaşayır?

**Şagirdin şagird kollektivində şəxsiyyətlərarası münasibətlərinin xüsusiyyətləri.**

- Kollektivdə ictimai tapşırıqları necə yerinə yetirir? Kollektivin fikir və meyarları ilə hesablaşırmı?

- Kollektivdə mövqeyi (sinfin fəalları sırasına daxildir, yoxsa passivdir). Şagird kollektivinin və ya onun bir hissəsinin rəğbətini qazanıb və ya qazanmayıb?

- Sinifdə və ya başqa qruplarda kimlərlə dostluq edir? Sinif yoldaşlarından kimin sözünə əhəmiyyət verir? Və nəyə görə? Yoldaşlıq və dostluq haqqında onun təsəvvürü varmı?

- Yoldaşlarına və dostlarına əmr edə bilir ya yox? Onlara tabe olur ya yox? O, özü yaxşı yoldaş (rəfiqə) ola bilirmi? Yoldaşlarına oxumaqda kömək edirmi? Səhvini boynuna alırmı,yaxud öz dediyinin üstündə israrla durur?

- Kollektivdə ünsiyyətçildir, yoxsa qaradinməzdir? Sinif yoldaşları ilə ümumi dil tapır, yaxud konfliktə girir?

- Kollektivin müvəffəqiyyətinə və müvəffəqiyyətsizliyinə münasibəti necədir (ciddi əhəmiyyət verir, yaxud biganədir)?

- Ona nəyə görə hörmət edirlər və ya etmirlər? Sinifdə şagirdlər arasında nüfuzu varmı? Davranış və rəftarında sinif kollektivinin rəyinə münasibəti necədir?

- Şagird bir təşkilatçı kimi hansı xüsusiyyətlərlə fərqlənir? Onda təşkilatçılıq qabiliyyətləri necə formalaşmışdır? Şagird kollektivindəki mənfi məzmunlu sosial-psixoloji hadisələrə münasibəti necədir?

**Şagirdin təlim fəaliyyətinin ümumi xarakteristikası.**

- Ən çox hansı fənlərlə maraqlanır? Hansı fənn üzrə bilik, bacarıq və vərdişləri yüksək səviyyədədir?

- Təlimə necə yanaşır (işini vicdanla yerinə yetirir, materialı başa düşməyə çalışır, yoxsa onu əzbərləməklə kifayətlənir və s.)?

- Təlim prosesində fəaliyyətini necə planlaşdırır və özünə necə nəzarət edir.

- Aldığı qiymətlərə münasibəti, təlim fəaliyyətində müvəffəqiyyətinə və uğursuzluqlarına münasibəti necədir?

- Təlim motivləri: yüksək əxlaqi ideal, müsbət nümunə, biliyə yiyələnmək, sinfin, dəstənin, məktəbin, ailənin adını ucaltmağa çalışmaq, sənət və gələcək iş üçün bilik qazanmaq, Vətənə, millətə daha yaxşı fayda vermək, valideynləri kədərləndirməmək, yaxud onları sevindirmək üçün, başqalarından seçilmək, heç kəsdən geri qalmamaq, daha yaxşı yaşamaq üçün və s.

**Şagirdin ümumi və xüsusi qabiliyyəti.**

Şagirdin aydın müşahidə olunan qabiliyyətləri: zehni fəaliyyətə, əmək fəaliyyətinə, musiqiyə, təsviri incəsənətə, riyaziyyata, texnikaya, ədəbiyyata,

təşkilatçılığa, natiqliyə və s. Şagirdin psixi inkişaf baxımından aid olunduğu tip: akselerant, retredant, infantil.

- Hansı qabiliyyətlər daha çox nəzərə çarpır?
- Hansı peşəyə meyillidir?
- Başqa şagirdlərdən onu fərqləndirən hansı qabiliyyətlərə malikdir?

**Emosional-iradi sahəsinin xüsusiyyətləri.**

- Pedaqoji təsirlərə emosional reaksiyaların xarakteri: intensivlik, mütəəsirlik, gülərüzlülük və s. Şagirdin əxlaqi, estetik və intellektual hisslərinin xüsusiyyətləri, şaigrdin öz hisslərinə nəzarət edə bilməsinin səviyyəsi.
- Şagirdin iradi xüsusiyyətləri: qətiyyətlilik, əzmkarlıq, təmkinlilik, məqsədyönlülük, təşəbbüskarlıq, təkidlilik və s.

**Şagirdin xarakter əlamətləri.**

- Şagirdin kollektivə və başqa adamlara (validenylərə, böyüklərə, müəllimlərə və sinif yoldaşlarına) münasibətini ifadə edən xarakter əlamətləri (qayğıkeşlik, kobudluq, kollektivçilik, səmimilik, ünsiyyətlilik və s.)
- Şagirdin əməyə münasibətini ifadə edən xarakter əlamətləri (əməksevərlik, tənbəllik, işgüzarlıq, təşəbbüskarlıq, məsuliyyətlilik, intizamlılıq və s.)
- Şagirdin əşyalara münasibətini ifadə edən xarakter əlamətləri (səliqəlilik, qayğıfkeşlik, ehtiyatlılıq, pintilik və s.)
- Şagirdin özünə münasibətini ifadə edən xarakter əlamətləri (sadəlik, təvazökarlıq, lovğalıq və s.)

**Şagird şəxsiyyətinin dinamik xüsusiyyətləri (temperament).**

- Şagird çox vaxt nə cür hal keçirir: gümrah, şən, sakit, acıqlı, qəmli, ağlama

- Müxtəlif faktlara və hadisələrə reaksiya tezdir və ya zəifdir

- Çətin vəziyyətlərdə o özünü itirməməyi bacarırmı və ya itirir, hirslənir, təslim olur

## Ədəbiyyat.


1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. B., 2009.
2. Психолого-педагогическое сопровождение образовательного процесса: Учебное пособие / Мандель Б.Р. - М.: Вузовский учебник, НИЦ ИНФРА-М, 2016. - 152 с.: 60x90 1/16 (Обложка. КБС) ISBN 978-5-9558-0401-9 - Режим доступа: http://znanium.com/bookread2.php?book=539289
3. Психологическая помощь в специальном образовании: учебник / И.Ю. Левченко, Т.Н. Волковская, Г.А. Ковалева. - М.: ИНФРА-М, 2017. - 314 с. - (Высшее образование: Бакалавриат). - www.dx.doi.org/10.12737/13533. - http://znanium.com/bookread2.php?book=635195
4. Васильева, И. В. Организация психологических служб [Электронный ресурс]: учебное пособие / И. В. Васильева. - 2-е изд., стер. - М.: ФЛИНТА, 2013. - 144 с. - ISBN 978-5-9765-1714-1: http://znanium-.com/bookread2.php?book=462921
5. Гребнева В.В. Теория и технология решения психологических проблем: Учебное пособие [Электронный ресурс] / В.В. Гребнева - М.: НИЦ ИНФРА-М, 2014. - 192 с. Режим доступа: http://znanium.com/bookread2.php?book=374537, ЭБС 'Знаниум'
6. Левченко И.Ю. Психологическая помощь в специальном образовании [Электронный ресурс] / И. Ю. Левченко - М.: НИЦ ИНФРА-М, 2016. - 320

с.- URL: http://znanium.com/bookread2.php?book=515964, ЭБС 'Знаниум'
7. Психологическая фасилитация работы школьного учителя: учеб. пособие / Р.В. Овчарова. - 2-е изд. - М.: РИОР: ИНФРА-М, 2017. - 275 с. - (Высшее образование: Магистратура). - https://doi.org/10.12737/22650. -: http://znanium.com/bookread2.php?book=752498
8. Психологическая экспертиза в практике клинического психолога. Часть 1. Психологическая экспертиза в системе здравоохранения и образования: Учебное пособие / Мамайчук И.И. - СПб:СПбГУ, 2017. - 144 с.: ISBN 978-5-288-05745-8 : http://znanium.com/bookread2.php?book=999735
9. Управление школой: организационные и психолого-педагогические аспекты ISBN:978-5-9558-0368-5: http://znanium.com/bookread2.php?-book=455626
10. Мир психологии - http://psychology.net.ru/
11. http://www.voppsy.ru Сластенин В., Исаев И. и др. Педагогика. - http://www.gumer.info/bibliotek_Buks/Pedagog/slast/06.php
12. http://znanium.com/catalog/tbk/8/?nov=1 электронная библиотека - www.pedlib.ru